2015-ci il noyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Validə Kazımovanın Mərkəzi Seçki Komissiyasına daxil olmuş 23 noyabr 2015-ci il tarixli 188 saylı müraciəti üzrə

# RƏYİ

Bakı şəhəri 23 noyabr 2015-ci il

2015-ci il noyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 73 saylı Lənkəran şəhər seçki dairəsi üzrə qeydə alınmış namizəd Həmidova Gülarə Hüseynəli qızı 23 noyabr 2015-ci ildə Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək səsvermə günü bəzi seçki məntəqələrində qanun pozuntularının baş verdiyini bildirmiş və həmin seçki dairəsi üzrə səsvermənin nəticələrinin ləğv edilməsini xahiş etmişdir.

Mən, ekspert qrupunun üzvü Validə Kazımova həmin müraciəti Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq nəzərdən keçirərək onun müddət ötürülməklə verildiyini müəyyən etdim və bu barədə müvafiq rəy tərtib etdim.

Belə ki, Azərbaycan Respubliası Seçki Məcəlləsinin 112.1-ci maddəsinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1.1-ci və 4.1.2-ci hissəsinə əsasən, seçki subyektləri vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət verilə bilər.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1.1-ci, 1.2-ci, 4.1.2-ci, 7.1-ci və 7.10.2-ci bəndlərinə əsasən **r ə y ə g ə l d i m :**

1. 2015-ci il noyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 73 saylı Lənkəran şəhər seçki dairəsi üzrə qeydə alınmış namizəd Həmidova Gülarə Hüseynəli qızının Mərkəzi Seçki Komissiyasına daxil olmuş 23 noyabr 2015-ci il tarixli 188 saylı müraciəti qanunvericiliklə müəyyən olunmuş şikayətvermə müddəti ötürülməklə verildiyindən ərizəçiyə geri göndərilsin.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxslərə göndərilsin.

Ekspert qrupunun üzvü Validə Kazımova